**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ "İLİN ƏN YAXŞI PR XİDMƏTİ" MÜSABİQƏSİNİN QALİBİ OLDU

**No: 10/05/122**
**26.04.2010**

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) fəaliyyətə başlamasından ötən 6 il ərzində Azərbaycanda fəaliyyət göstərən nüfuzlu iş adamları təşkilatları sırasında özünəməxsus yer tutmağa nail olub. Təşkilat hər zaman fəaliyyətinin ayrılmaz hissəsi olan ictimaiyyətlə əlaqələrin düzgün təşkilinə xüsusi əhəmiyyət verib, ATİB və ictimaiyyət arasında yüksək səviyyəli ünsiyyət, qarşılıqlı anlaşma və əməkdaşlıq əlaqələri yaranıb. ATİB-in ictimaiyyətlə əlaqələrinin peşəkarlıq prinsipləri əsasında təşkilinin bariz nümunəsi olaraq, Azərbaycan Türkiyə İş adamları Birliyinin (ATİB) İctimaiyyətlə əlaqələr şöbəsi "2009-cu ilin ən yaxşı PR xidməti" nominasiyası üzrə qalib olub.

"İlin ən yaxşı PR-xidməti" müsabiqəsinin ənənəvi olaraq hər il "Press-reliz Yayım Xidməti" tərəfindən həyata keçirilir. 2009-cu ilin nəticələri üzrə təşkil edilmiş müsabiqədə Azərbaycanın qeyri-kommersiya təşkilatları içərisində Azərbaycan Türkiyə İş adamları Birliyinin (ATİB) İctimaiyyətlə əlaqələr şöbəsi qalib olub.

Müsabiqənin Təşkilat Komitəsi tərəfindən müsabiqədə iştirakla bağlı dövlət strukturlarının mətbuat xidmətlərindən 5, qeyri-kommersiya strukturlarının PR xidmətlərindən 18 və müxtəlif iqtisadi fəaliyyət sahələrini təmsil edən biznes strukturlarının PR xidmətlərindən 33 müraciət qəbul edilib. Qaliblər iştirakçıların fəaliyyətlərini əks etdirən göstəricilərin müqayisəsi, balla qiymətləndirmə yolu ilə müəyyənləşdirilib. Hər bir göstərici üzrə iştirakçıların ballarının cəmlənməsi hesabına iştirakçılar üçün yekun ballar çıxarılıb.

"İlin ən yaxşı PR-xidməti" müsabiqəsi ölkəmizdə ictimaiyyətlə əlaqələr üzrə kadrların peşəkar səviyyəsinin qiymətləndirilməsi və motivasiyası baxımından mühüm əhəmiyyət kəsb edir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə əlaqələr şöbəsinə istinad edilməsi vacibdir**